**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ƏSMƏD TƏYYAR QIZI ŞƏRİFOVA**

# M. MURADXANOVUN PEDAQOJİ İRSİ VƏ AZƏRBAYCANDA PEDAQOGİKA ELMİNİN İNKİŞAFINA ONUN TƏSİRİ

5804.01 – ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

# AVTOREFERATI

**BAKI - 2014**

Dissertasiya Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun təhsilin konseptual problemləri şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Əjdər Əbdülhüseyn oğlu Ağayev**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor,əməkdar müəllim*

**Rəsmi opponentlər:** **Rüfət Lətif oğlu Hüseynzadə**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, əməkdar müəllim*

**Yaqut Tosif qızı Rzayeva**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetinin Pedaqogika kafedrası

Müdafiə «_11__» _12__ 2014- cü ildə saat ____ -da pedaqoji elmlər üzrə Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərən FD.02.061 dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

Ünvan: Az-1000 , Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 34.

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «_____» ___________ 2014-cü ildə göndərilib.

**Dissertasiya şurasının**
**elmi katibi:** **K.R.Quliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Azərbaycan xalqı əsrlər boyu öz mənəvi zənginliyini mühafizə etmiş, ibrətamiz, tərbiyəvi fikirlərini nəsildən-nəslə ötürmüşdür. Nizami Gəncəvi, Xaqani Şirvani, Şah İsmayıl Xətai, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Məhəmməd Tağı Sidqi, Rəşid bəy Əfəndiyev, Firudin bəy Köçərli, Sultan Məcid Qənizadə, Üzeyir Hacıbəyov və digər maaarifpərvərlərimiz Azərbaycan pedaqoji fikrinin mütərəqqi ənənələrini əsrdən-əsrə keçirərək yaşatmışlar. Xüsusilə XIX əsrin sonu və XX əsrin əvvəllərində ictimai-pedaqoji fikir daha fəal olmuş, ictimai-siyasi baxışları da özündə ehtiva etmişdir. Bu dövrün müxtəlif problemləri, cərəyanları, özünəməxsus ənənələri meydana çıxmış, təhsilin və pedaqoji fikrin inkişafında aparıcı istiqamət kimi özünü daha qabarıq göstərmişdir.

XX əsrin əvvəllərində və 20-30-cu illərində məktəb təhsil, təlim işi sahəsindəki milli kadrların çox böyük əksəriyyəti müəllim kimi əməli fəaliyyət göstərən şəxslər idi və onlar elmi və metodiki məqalələr, dərsliklər yazmaqla təhsilin inkişafına xidmət göstərmişlər. Lakin 30-cu illərin sonu və 40-cı illərin əvvəllərindən başlayaraq Azərbaycanda pedaqoji tədqiqatlarla məşğul olan, pedaqogika üzrə elmi dərəcəyə layiq görülən milli kadrlar meydana çıxdı. Onlardan pedaqoji elmlər doktoru, professor Əhməd Seyidov, akademik, pedaqoji elmlər doktoru, professor Mehdi Mehdizadə, professor Mərdan Muradxanov həm birincilər sırasında olmuş, həm də daha önəmli fəaliyyət göstərmişlər. Bu pedaqoq - alimlərin hər birinin elmi-pedaqoji irsinin araşdırılıb təhlil edilməsi, ideyalarının sistemə salınması, öz dövrlərində gördükləri səmərəli işlərin nəticələrinin üzə çıxarılması həm elmi-nəzəri, həm də praktik baxımdan xüsusi əhəmiyyət və aktuallıq kəsb edir.

Professor Mərdan Muradxanovun fəaliyyəti, təhsilin və pedaqogika elminin inkişafında mövqeyi daha geniş və çox istiqamətlidir. Çünki o, orta məktəb müəllimi, ali məktəb professoru, pedaqoq-tədqiqatçı olmaqla yanaşı həm də uzun müddət ibtidai təhsil nəzəriyyəsi və metodikası kafedrasının müdiri vəzifəsində işləmişdir.

Alim - pedaqoqun diqqətini ilkin cəlb edən problem Nizami irsi olmuşdur. O, Nizaminin əsərlərində təlim-tərbiyə məsələlərini, C.Məmmədquluzadənin, Üzeyir Hacıbəyovun pedaqoji fikirlərini araşdırmış, ömrünün 20 ilini A.S.Makarenko irsinin tədqiqinə həsr etmişdir.

Professor M.Muradxanov didaktikanın ən zəruri məsələlərini tədqiq edərək bu barədə maraqlı fikirlər irəli sürmüşdür.

Görkəmli alim pedaqoji ədəbiyyatın və tədqiqatçılıq işinin xüsusiyyətlərini, incəliklərini dərindən duyan, pedaqogika elminə, pedaqoji fikir tarixinə yüksək qiymət verməyi bacaran, pedaqogika elminin inkişafına mane olan əngəlləri görən və onları tənqid etməkdən çəkinməyən, habelə pedaqoji prosesin inkişafının daha düzgün yolla getməsinə qayğı göstərən olmuş, pedaqoji fakt və hadisələri təhlil etmək qabiliyyəti, pedaqoji təcrübənin nailiyyətlərini ümumiləşdirmək bacarığı zəngin olan ustad pedaqoq kimi fəaliyyət göstərmişdir. M.Muradxanov Azərbaycan dilində pedaqogikadan dərs vəsaitlərinin hazırlanmasına böyük qayğı ilə yanaşmış gənc qüvvələri ətrafına toplayaraq «Pedaqogika» (1964) dərs vəsaitini nəşr etdirmişdir.

M.Muradxanov həmçinin tərbiyə, xüsusilə ailə tərbiyəsi məsələlərinə də yaradıcılığında xüsusi yer ayırmışdır. Onun «Ailə və məktəb», «Ailədə uşaqların intizam tərbiyəsi», «Ailədə uşaqların əmək tərbiyəsi», «Ailə mühüm tərbiyə ocağıdır» və s. əsərləri dövri mətbuatımızda yüksək qiymət almış, müəllim və valideynlərə yaxından kömək göstərmişdir. Onun K.D.Uşinski, Y.A.Komenski, A.S.Makarenko irsinin Azərbaycan dilinə tərcümə edilməsi və ictimaiyyətə çatdırılması işində xidmətləri böyükdür.

M.Muradxanov yalnız Azərbaycanda deyil, həm də keçmiş SSRİ – də elmi-pedaqoji ictimaiyyət arasında yaxşı tanınmışdır. O, Moskvada nəşr edilmiş «Pedaqoji lüğət» və «Pedaqoji ensiklopediya»nın müəlliflərindən biridir.

Professor M.Muradxanovun şəxsiyyəti və elmi-pedaqoji irsi həm sağlığında[1], həm də vəfatından sonra tədqiqatçı alimlərin diqqətində olmuş, onun anadan olmasının 100 illiyi prof.Fərrux Rüstəmovun təşəbbüsü ilə ADPU-da yüksək səviyyədə keçirilmişdir[2].

---

[1] H.Əhmədov, S.Axundov.Əbədiyyata qovuşan ömür."Azərbaycan müəllini" qəzeti, 9 may 1979; M.Əliyev . Alimin yolu . "Azərbaycan məktəbi" jurnalı 1970, №6; Ə. Ağayev. Qoşa qanadın üfüqləri "Azərbaycan müəllimi" qəzeti 13 aprel 1973; S. Axundov. Unudulmaz pedaqoq. "Azərbaycan məktəbi"jurnalı 1989, №6; X.Fətəliyev, V. Xəlilov. Mənəvi zənginlik nümunəsi. "Azərbaycan gəncləri" qəzeti 22 aprel 1989; F.Rüstəmov. 70 illik işıqlı və mənalı ömür yolu ."Azərbaycan məktəbi" jurnalı,2009, №6 .

[2] V.Səlimov. 70 illik mənalı ömür yolu . "Təhsil problemləri" qəzeti 21-30 noyabr 2009; Ziyadov.R Görkəmli pedaqoq alimin yubiley tədbiri. "Azərbaycan müəllimi" qəzeti, 20 noyabr 2009; Ziyad A. 70 illik işiqli və mənalı ömür yolu."Gənc müəllim" qəzeti, noyabr 2009; Görkəmli pedaqoqun yubileyi qeyd olundu. "Təhsil və zaman" qəzeti, 4 dekabr 2009.

Bütün bunlara baxmayaraq onun yaradıcılığı hələ də ciddi elmi tədqiqatın predmeti olmamış, dərindən öyrənilməmişdir.

Məhz buna görə də «M.Muradxanovun pedaqoji irsi və Azərbaycanda pedaqogika elminin inkişafına onun təsiri» mövzusunda dissertasiya yazmağı zəruri hesab etdik.

**Tədqiqatın obyektini** Azərbaycanda pedaqoji elmin inkişafı təşkil edir.

**Tədqiqatın predmetini** professor Mərdan Muradxanovun pedaqoji irsinin Azərbaycanda pedaqogika elminin inkişafına təsiri təşkil edir.

**Tədqiqatın məqsədi** professor Mərdan Muradxanovun pedaqoji fəaliyyətini, təhsil-tərbiyə və pedaqoji fikir tarixi ilə bağlı tədqiqatlarını təhlil edib sistemləşdirmək və ümumiləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri**. Məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- M.Muradxanovun həyatı və elmi – pedaqoji fəaliyyətini öyrənmək;
- M.Muradxanovun tərbiyə nəzəriyyəsinə dair fikirlərini ümumiləşdirmək;
- M.Muradxanovun təlim nəzəriyyəsinə fikirlərini təhlil etmək ;
- M.Muradxanovun pedaqoji təcrübəni öyrənib ümumiləşdirilməsi sahəsində tədqiqatlarını ümumiləşdirmək;
- Muradxanovun Azərbaycanda pedaqoji fikrin inkişafında mövqeyini müəyyənləşdirmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə tətbiq olunan prinsiplərin, metodların və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədiqatın metodları**: nəzəri təhlil, müsahibə, arxiv materiallarının, xatirə ədəbiyyatının öyrənilməsi, tarixi-müqayisəli metod və s.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyada professor Mərdan Muradxanovun pedaqoji fəaliyyətinin mərhələləri araşdırılır, təhsil-tərbiyə və pedaqoji fikir tarixi ilə bağlı tədqiqatları təhlil edilir, ümumiləşdirilir, Azərbaycanda pedaqogika elminin inkişafındakı xidmətləri müəyyənləşdirilir, özündən sonrakı tədqiqatlara təsir imkanları üzə cıxarılır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Prof.M.Muradxanovun təhsil-tərbiyə və pedaqoji fikir tarixi ilə bağlı tədqiqatları, ideya və fikirləri pedaqoji elmi zənginləşdirməyə xidmət edir.

**Tədqiqatın praktik əhəmiyyəti.**Tədqiqatın materiallarından “Pedaqogika”, “Azərbaycan məktəb və pedaqoji fikir tarixi”nə dair dərslik və

dərs vəsaitlərinin,müntəxabatların,biblioqrafik göstəricilərin və mühazirə materiallarının tərtibində istifadə etmək olar.

**Müdafiəyə aşağıdakı müddəalar təqdim edilir:**

1. Azərbaycanda öz təşəkkülü və inkişafının reqional və milli özünəməxsusluğu ilə secilən pedaqoji ideyaların və pedaqogika elminin inkişafında Mərdan Muradxanovun müstəsna xidmətləri olmuşdur.

2. Mərdan Muradxanovun pedaqoji ideyaları Azərbaycanda təhsil-tərbiyə nəzəriyyəsini zənginləşdirmiş və onun inkişafına təkan vermişdir.

3.Mərdan Muradxanovun pedaqoji və elmi-pedaqoli kadr hazırlığındakı fəaliyyəti, elmi-nəzəri və pedaqoji irsi Azərbaycanda təhsil quruculuğunda, təlim-tərbiyə işinin məzmununun təkminləşdirilməsində və inkişafında səmərəli rol oynamışdır.

4.M.Muradxanovun pedaqoji irsi müəllim kadrları hazırlığında, tələbələrin pedaqoji təfəkkürünün formalaşmasında mühüm rol oynayır.

**Tədqiqatın aprobasiyası.** Tədqiqatın nəticələrinə aid tələbələr və müəllimlər qarşısında mühazirələrlə çıxışlar edilmişdir, Tədqiqatın məzmunu ilə əlaqədar 6 məqalə, 1 tezis çap olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın birinci fəsli **«Professor M. Muradxanovun həyatı, elmi və pedaqoji fəaliyyəti»** adlanır. Bu fəsil 3 yarımfəsildən ibarətdir.

Birinci fəslin ilk yarımfəsli ***«M.Muradxanovun yaşayıb – fəaliyyət göstərdiyi dövrün ictimai-iqtisadi, elmi - mədəni səciyyəsi»*** adlanır.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda iqtisadiyyat sürətlə inkişaf edirdi. Kəndlərdə ipəkçilik, əkinçilik, üzümçülük, maldarlıq, pambıqçılıq və s., şəhərlərdə isə xüsusilə Bakıda sənaye sahələri genişlənir, ticarət şirkətləri, cəmiyyətləri yaranırdı. Kapitalizmin Rusiyada inkişafı ilə əlaqədar, Azərbaycan iqtisadiyyatının müəyyən sahələri də bu yolla gedirdi.XIX əsrin sonu XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanın ictimai-siyasi həyatında yeni bir oyanış, yeni bir canlanma hiss edilməyə başladı. Sənaye burjuaziyası inkişaf etdikcə, proletariatın iqtisadi tələblərinin üstünə siyasi tələblər də gəlirdi. Həmin dövrdə Bakı şəhəri Azərbaycanın həm də yeni mədəniyyət mərkəzinə çevrilirdi. Azərbaycanlı ziyalıların əsas qüvvələri burada toplanırdı. XIX əsrin son illərində müte-

rəqqi rus pedaqoji ənənələrindən və klassik dünya pedaqogikasından bəhrələnmiş F.Köçərli, R.Əfəndiyev, N.Nərimanov, N.Vəzirov, S.M. Qənizadə kimi Azərbaycan pedaqoqları yetişdi. Onlar yeni, vətənpərvər maarif ordusunun formalaşmasında xeyli zəhmət çəkmişlər. Əsasən XX əsrin ilk illərindən fəaliyyətə başlayan yeni dəstəyə S.S.Axundov, A.Şaiq, F.Ağazadə, Ü.Hacıbəyov və b. daxil idilər.Bu dövrdə «Dəbistan», «Rəhbər», «Məktəb» kimi pedaqoji məcmuələrin nəşri, «İrşad», «Tərəqqi», «İqbal» kimi qəzetlərin öz səhifələrində pedaqoji məsələlərə yer verməsi, «Molla Nəsrəddin» məcmuəsinin maarif və mədəniyyət uğrundakı mübarizəsi pedaqoji fikrin inkişafına təsir edirdi.

Bütün bu ziyalıların maarifçi-demokrat kimi yetişməsində, Azərbaycanda tanınmış şəxsiyyətlərin ilkin formalaşmasında Zaqafqaziya (Qori) müəllimlər seminariyasının da böyük rolu olmuşdur. Əsası 1876-cı ildə qoyulan Zaqafqaziya müəllimlər seminariyasının nəzdində 1879-cu ildə Azərbaycan şöbəsi fəaliyyətə başlamışdır. Qori müəllimlər seminariyası Qafqazda və Orta Asiyada ana «seminariya» adı ilə tanınmışdır.

Azərbaycanın bütün bölgələrindən Qori seminariyasına təhsil almağa gələn seminaristlər maarif və mədəniyyətin carçısı olmuş, savadsızlığın ləğvində səmərəli əmək sərf etmiş, məktəblərin açılmasında, proqram və dərsliklərin tərtibində, kiçik məktəbyaşlı uşaqların məktəbə qəbul olunmasında yaradıcı, pedaqoji - metodik fəaliyyət göstərmişlər.

Qori seminariyası müvəffəqiyyətlə bitirənlərdən biri də prof. Mərdan Muradxanovun atası Əsədulla Muradxanov olmuşdur.O, Salyanda anadan olmuş, Salyan mədrəsəsində və şəhər yerli rus məktəbində oxumuşdur. Mirzə Kərbəlayi Molla Mərdan yeganə oğlu Əsədullanı bu məktəbdə oxudur, onun rus dilini öyrənməsinə xüsusi səy göstərir. Oğlunu məktəbdar, müdərris etmək arzusunda olan Kərbəlayi Molla Mərdan Zaqafqaziya müəllimlər seminariyasının müqəddəs elm ocağı olduğuna inanırdı. Salyan mədrəsəsində ərəb və fars, zemstvo məktəblərində rus-dilini öyrənən Əsədullanın maarifə və elmə marağı Qori müəllimlər seminariyasının seminaristi olmaq arzusunu həqiqətə çevirdi.

Əsədulla Mərdan oğlu Muradxanov 1897-ci ildə Qori müəllimlər seminariyasının seminaristi olmaq arzusunu həqiqətə çevirdi. Əsədulla Mərdan oğlu Muradxanov 1897-ci ildə Qori müəllimlər seminariyasının aşağı hazırlıq sinfinə qəbul olunmuş, seminariyanı 8 nəfər azərbacanlı məzunla birlikdə bitirmişdir. Əsədulla müəllimin 2 oğlu və 6 qız övladı olmuşdur. Oğlanları savadlı və təhsilli olmuşlar. Oğlunun biri həkim, o biri isə əsrimizin məşhur pedaqoqu Mərdan Muradxanov olmuşdur.

Bu yarımfəsildə XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda daha çox diqqət yetirilən pedaqoji problemlər təhlil və tədqiq olunur.XX əsrin 30 -50 –ci illərində Azərbaycanda təhsi – tərbiyə müəssisələrinin inkişafı, elmi-pedaqoji mühit də həmin yarımfəsildə tədqiqat predmetinə çevrilmiş, akademik M.Mehdizadə və prof.Ə.Seyidovun pedaqogika elminin təşəkkülü və inkişafındakı xidmətləri önə çəkilmişdir.

Birinci fəslin ikinci yarımfəsli «***M.Muradxanovun həyatı və elmi-pedaqoji fəaliyyəti***» adlanır. Azərbaycanda pedaqogika elminin, məktəb və pedaqoji fikir tarixinin, tərbiyə və təlim nəzəriyyəsinin tədqiq olunub öyrənilməsində Mərdan Əsədulla oğlu Muradxanov müstəsna xidmətlər göstərmişdir. O,1909-cu ildə Salyan şəhərində anadan olmuşdur. Orta təhsilini Salyan şəhərində alan M.Muradxanov təhsilini davam etdirmək üçün Bakı şəhərinə gəlir, Bakı Pedaqoji Texnikumuna daxil olur. Pedaqoji şuranın sədri Atababa Musaxanlı, üzvləri M.Seyidov və başqalarının imzası ilə verilən rəsmi sənəddə deyilir: "1923-cü ilin 5 iyun tarixli pedaqoji texnikumlara məxsus nizamnaməsinin 14-cü maddəsinə görə vətəndaş Mərdan Əsədulla oğlu Muradxanov 1927-ci ildə bitirdiyi üçün birinci dərəcəli və bununla yeni tipdə olan başqa məktəblərdə müəllimlik haqqına malikdir". Digər tərəfdən pedaqoji texnikumu kamilən bitirdiyindən Xalq Maarifi Komissarlıq heyəti şurasının 1923-cü il 5 iyunda təsdiq edilən Nizamnaməsinin 16-cı maddəsinə görə «Azərbaycanın bütün ali məktəblərinə qəbul olunmaq hüquq və imtiyazına malikdir». Mərdan Muradxanov 1927-ci ildə Salyan ibtidai məktəbinə müəllim təyin olunur və bir müddət orada fəaliyyət göstərir. Sonralar ali təhsil almaq arzusu ilə Bakıya gəlir və Pedaqoji İnstituta qəbul olunur. 1932-ci ildə oranı (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) uğurla bitirir. Mərdan Muradxanov insititutda baş laborant saxlanılmış, 1932-ci ilin dekabrında kiçik elmi işçi təyin olunmuşdur. 1933-cü ilin yanvarından 1934-cü ilin sentyabrına kimi "Azərnəşr"-də redaktor vəzifəsində işləmişdir. 1934-cü ilin sentyabr ayında Bakıdakı 18 saylı məktəbə direktor vəzifəsinə təyin edilmişdir. M. Muradxanov 1936-cı ildə İ.A.Gertsen adına Sank-Peterburq (keçmiş Leninqrad) Pedaqoji İnsititutunun aspiranturasına qəbul olunmuş və 1939-cu ildə oranı bitirmişdir. «Nizami Gəncəvinin pedaqoji fikirləri» mövzusunda yazdığı dissertasiyasını tamamlamaq üçün Azərbaycan Dövlət Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunda kiçik elmi işçi vəzifəsinə təyin edilmişdir. 1941-ci ildə Böyük Vətən müharibəsinə göndərildiyindən namizədlik dissertasiyasını müdafiə etmək imkanı olmur. 1943-cü ildə iki həftə müddətinə icazə alıb cəbhədən evə gəlir. Həmin müddətdə «Nizami Gəncəvinin

pedaqoji fikirləri» mövzusunda yazdığı namizədlik dissertasiyasını müdafiə edir. Ordu sıralarından tərxis olunan M.Muradxanov 1946-1952-ci illərdə ElmiTədqiqat Pedaqoji İnsititutunda elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmış və M.F.Axundov adına pedaqoji insititutda (indiki Bakı Slavyan Universiteti) dərs demişdir. M.Muradxanov pedaqogikadan mühazirə aparmaqla kifayətlənməmiş, həm də dövri mətbuatda fəal çıxış etmiş, elmi-metodik məqalələr yazmış və kitablar çap etdirmişdir. M. Muradxanov 1952-ci ildən 1958-ci ilə kimi indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində pedaqogika kafedrasının müdiri işləmiş, bir sıra dərsliklər, dərs vəsaitləri tərtib etmişdir. Bu müddətdə pedaqoji kadrların yetişdirilməsində səmərəli fəaliyyət göstərmişdir. 1960-cı ildən ömrünün sonuna kimi (1979) Azərbaycan Dövlət Pedaqoji Universitetində İbtidai təhsil pedaqogikası və metodikası kafedrasının müdiri vəzifəsində çalışmışdır.1961-ci ildə SSRİ Ali Attestasiya Komitəsi ona professor elmi adı vermişdir.

Xalq maarifi sahəsindəki səmərəli xidmətlərinə və məhsuldar elmi-pedaqoji fəaliyyətinə görə prof. Mərdan Əsədulla oğlu Muradxanov Azərbaycan SSR əməkdar elm xadimi (1973) fəxri adına, Qırmızı Əmək Bayrağı ordeninə, onlarla medala və fəxri fərmana layiq görülmüşdür.

M.Muradxanovun 1931-ci idən ömrünün sonuna qədər 468 çap vərəqi həcmində 38 kitabı, 134 jurnal və 255 qəzet məqaləsi dərc olunmuşdur. Onun "Nizaminin pedaqoji görüşləri", «A.S. Makarenkonun pedaqoji irsi və ondan Azərbaycanda istifadə edilməsi təcrübələri», «Məktəblilərin əxlaq tərbiyəsinin prinsip və üsulları», «Məktəbdə şüurlu intizam tərbiyəsi ", «Ailə və məktəb» və s. kimi əsərləri Azərbaycan pedaqoji elminə dəyərli töhfədir.

Birinci fəslin sonuncu yarımfəsli ***«M.Muradxanovun elmi-pedaqoji irsi»*** adlanır. Azərbaycan pedaqogika elminin inkişafında görkəmli xidmətləri olan M. Muradxanov zəngin elmi-pedaqoji irsə malikdir.

M.Muradxanovun yaradıcılığında onun ilk dərslikləri mühüm rol oynayır. O, ibtidai məktəbin üçüncü sinfi üçün Hüseyn Əfəndiyev ilə birlikdə «Gənc kolxozçu» adlı ana dili dərsliyi yazmış, görkəmli yazıçı Sabit Rəhmanla birlikdə əsgərlər üçün "Qırmızı bayraq altında" adlı qiraət-oxu kitabını çap etdirmişdir. Kitabda əsgərlərin həyatına dair lirik və epik əsərlərdən nümunələr, şifahi xalq ədəbiyyatından maraqlı mətnlər toplanmışdır.

M.Muradxanovun elmi-pedaqoji irsində ailə tərbiyəsi məsələləri də xüsusi yer tutur.Onun "Ailə və məktəb", "Ailə mühüm ocaqdır", "50 sual-5o cavab" , «Məktəblilərin ailədə tərbiyəsi» adlı kitablarında ailə

tərbiyəsinin nəzəri və təcrübi məsələrinə toxunulur, ailə təərbiyəsinin məqsədi, vəzəfələri, mahiyyəti, təşkili xüsusiyyətləri təhlil olunur, bu sahədəki təcrübə ümumiləşdirilir.

Yarımfəsildə M.Muradxanovun pedaqoji sahədəki tədqiqatlarına xüsusi diqqət yetirilir,onun müəllifliyi və rəhbərliyi ilə hazırlanan "Pedaqogika" dərs vəsaitinin məğzinə aydınlıq gətirilir. Dərs vəsaitinin gələcək müəllimlərin pedaqoji hazırlığında yeri və rolu yüksək dəyərləndirilir.

Yarımfəsildə prof. M.Muradxanovun əxlaq tərbiyəsinin məqsədi, mahiyyəti, prinsipləri, metodları və təşkili formaları ilə bağlı fikirləri təhlil edilir, pedaqoji nəzəriyyənin inkişafına təsir imkanları üzə çıxarılır.

"Sinif rəhbərinin işi haqqında" (1972) adlı kitabında M.Muradxanov tərbiyənin başlıca mahiyyətini gənc nəsildə kollektivçilik, intizamlılıq, əməksevərlik, doğruçuluq, düzlük, insana hörmət və məhəbbət, mərdlik, mübarizlik kimi əxlaqi keyfiyyətlərin aşılanmasında görür. M.Muradxanova görə əxlaqi keyfiyyətlərin içərisində intizamlılıq ön plana çəkilməlidir. Ona görə ki, intizamı olmayan, intizamsız adam vətənin qarşıya qoyduğu tələbləri icra edə bilməz. Nizam-intizam həyatda başlıca amildir ki, maddi nemətlərin istehsalında, elmlərin əsaslarını mənimsəməkdə zəruridir.

Dissertasiyada Mərdan Muradxanovun təlimin mahiyyəti, öyrənmə prosesinin psixoloji əsasları, təlimin ünsürləri (qavrama, tətbiqetmə və s.), prinsipləri, metodları və məzmunu ilə bağlı fikirləri də əhatəli şəkildə təhlil edilmişdir.

M.Muradxanov rus pedaqoqları içərisində A.S.Makarenkonun qızğın təbliğatçısı olmuş, onun əsərlərinin tərcümə və nəşr olunmasında iştirak etmiş, zəngin və çoxcəhətli pedaqoji irsini dərindən öyrənmiş, "A.S. Makarenkonun pedaqoji irsi və ondan Azərbaycanda istifadə edilməsi təcrübələri" adlı monoqrafik tədqiqat əsəri yazmışdır. Bu əsər M. Muradxanovun elmi-pedaqoji irsində çox mühüm yer tutur.

M.Muradxanovun ibtidai sinif müəllimlərinə kömək məqsədilə yazdığı kitabları və silsilə məqalələri təlim nəzəriyyəsinin inkişafına dəyərli töhfə olmaqla yanaşı, müəllimlərin ən çox istifadə etdiyi mənbələr olmuşdur.Onun "İbtidai sinifdə geridə qalma ilə mübarizə yolları", "Kiçik məktəblilərin psixoloji xüsusiyyətləri", "İki komplektli məktəbdə dərsin təşkili", "İbtidai siniflərdə Azərbaycan dili dərslərinin səmərəli təşkili", "Hesabdan sinifdənkənar məşğələlər", "Şifahi hesablama üsulları", "Savad təlimi" və s. məqalələri ibtidai sinif müəllimlərinə kömək məqsədilə yazılmışdır.

Dissertasiyanın ikinci fəsli «**M.Muradxanovun elmi – pedaqoji irsində nəzəriyyə və təcrübə məsələləri**» adlanır. Birinci fəslin ilk yarımfəsli «*Mərdan Muradxanov tərbiyə nəzəriyyəçisi kimi*» adlanır.

Azərbaycan pedaqoji elmində görkəmli yer tutan M. Muradxanovun tərbiyə məsələlərinə aid fikirlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Tərbiyənin prinsip və metodlarının izahı;
2. Əxlaq tərbiyəsinin xüsusiyyətləri, prinsipləri və metodları;
3. Ailədə əxlaqi münasibətlərin tərbiyə edilməsi;
4. Şagird əməyinin təşkili və əməksevərlik tərbiyəsi;
5. Tələbələrin hərtərəfli inkişafını nəzərdə tutan özünütərbiyə proqramı.

Azərbaycan pedaqoji elmində tərbiyənin qanunauyğunluqları əsasında bir sıra tərbiyə prinsipləri irəli sürülmüş və tədqiq olunmuşdur. Bu işdə M.Muradxanovun xidmətləri böyükdür. Tərbiyənin prinsipləri dedikdə «müəllimin tərbiyə işində rəhbər tutduğu əsas tələblər, başlıca müddəalar» nəzərdə tutulurdu. 70-ci illərdə bu anlayış bir qədər təkmilləşdirildi, elmi cəhətdən formula edildi, «tərbiyənin məqsədinə, qanunauyğunluqlarına müvafiq olaraq, tərbiyənin xarakterini, üsul və vasitələrini müəyyən etməkdə və həyata keçirməkdə rəhbər tutulan və tərbiyə işinin müvəffəqiyyətini təmin edən əsas tələblər, rəhbər müddəalar» tərbiyənin prinsipləri kimi qəbul edildi. M.Muradxanov etiraf edirdi ki, əxlaq tərbiyəsinin prinsiplərini müəyyən etməkdə pedaqogika elmində hələ tam vahidlik yoxdur. Tərbiyə prinsiplərinin necə ifadə olunması, tarixi-pedaqoji ədəbiyyatda qoyuluşu, miqdarı, təsnifatı sahəsindəki müxtəliflik və bunların səbəbi M.Muradxanov tərəfindən təhlil olunmuşdur. O, tərbiyə prinsiplərinin, təsnifatındakı fikir ayrılığını təhlil etmək üçün 1948-1978-ci illərdə nəşr olunmuş dərslik və dərs vəsaitlərini, proqramları, metodik vəsaitləri (cəmisi 29) nəzərdən keçirilmişdir. O, mənbələrdə adları çəkilən prinsiplərin və onların necə ifadə olunmasının təhlili və habelə təlim-tərbiyə müəssisələrində həmin prinsiplərin tətbiqi nəticələri ilə tanışlıq əsasında tərbiyənin 11 prinsipini irəli sürmüş və onların aşağıdakı kimi ifadə olunmasını məsləhət bilmişdir:

1. Tərbiyənin məqsədyönlüyü;
2. Tərbiyənin həyatla əlaqəsi;
3. Tərbiyədə şüurla davranışın vəhdəti;
4. Tərbiyədə yaş xüsusiyyətlərinin nəzərə alınması;
5. Tərbiyədə hörmət və tələbkarlıq;
6. Tələblərdə vahidlik (tərbiyədə vahidlik);

7. Tərbiyədə optimizm (müsbət cəhətlərə istinad etməklə qüsurları ləğv etmək);

8. Tərbiyədə fərdi yanaşma;

9. Kollektivdə kollektiv vasitəsilə tərbiyə;

10.Tərbiyədə uşağın özfəaliyyətinin pedaqoji rəhbərliklə birləşməsi;

11.Tərbiyədə fasiləsizlik[1].

M.Muradxanov 60-cı illərdə tərbiyənin 7 prinsipini irəli sürdüyü halda, 70-ci illərdə bu sistemi təkmilləşdirmiş, 11 prinsip irəli sürmüşdür. Lakin o, bunun mütləq qəbulundan danışmamış, əksinə, özü də etiraf etmişdir ki, həmin təsnifatda hər şeyə «tam nail olduğumuzu iddia edə bilmərik. İstər prinsiplərin təsnifatında və istərsə də ən qısa şəkildə ifadə olunmasında kollektivin səyi lazımdır».

Müasir pedaqogika elmində tərbiyə prinsiplərinin hələ də vahid strukturu yaradılmamışdır. Tərbiyə prosesinin prinsiplərini ümumi metodoloji prinsiplərlə əvəz etmək cəhdlərinə rast gəlinir.

M.Muradxanovun tərbiyənin metodları haqqında fikirləri də çox önəmlidir. O, 60-cı illərdən başlayaraq tərbiyənin metodlarının təsnifatı ilə bağlı çıxışlar etmişdir. M. Muradxanov əsasən qabaqcıl məktəblərin təcrübəsini ümumiləşdirərək tərbiyənin, xüsusilə əxlaq tərbiyəsinin metodlarını ətraflı tədqiq etmişdir.

70-ci illərdə tərbiyə metodları aşağıdakı ardıcıllıqla şərh olunmuşdur:

1) İnandırma metodu və onun vasitələri;
2) Alışdırma metodları;
3) Rəğbətləndirmə və cəza metodları.

M.Muradxanov tədqiqatlarında tərbiyə işində daha çox istifadə edilən tərbiyə metodları ilə bərabər müəllim-tərbiyəçinin şəxsi nümunəsinin rolunu da araşdırmışdır. Bu, öz-özlüyündə üsul deyildirsə də, müəllim – tərbiyəçinin tətbiq etdiyi bütün üsul və vasitələrin təsirini şərtləndirir.

M.Muradxanov tədqiqatlarında göstərir ki, müəllimin şəxsi nümunəsinin təsiri ondan ibarətdir ki, müəllimin şəxsiyyəti tərbiyə işində onun işlətdiyi bütün üsul və vasitələrdə bu və ya digər şəkildə əks olunur. Müəllimin tərbiyəvi nəsihətləri ilə öz hərəkətləri arasında ziddiyyətin olub-olmaması bu nəsihətlərə hökmən təsir edir. Onun tədqiqatlarında tərbiyə sistemində uşağın şüuruna, hissiyyatına təsir etməyin, onun iradəsini

[1] M.Muradxanov. Pedaqogika, Bakı, 1964, s.56

möhkəmləndirməyin, onda əxlaqi adətlər yaratmağın hər birinin mövqeyi və bunlar arasında olan əlaqələr ətraflı şərh edilmişdir.

Təlim-tərbiyə işinə komples yanaşmanın ən vacib komponetlərindən biri olan tərbiyə olunanların təhsili və tərbiyəsinin, ümumi inkişafının bütün fəaliyyət sahələrinin məqsədəuyğun şəkildə təşkilində vəhdətin təmin edilməsi məsələsi də M.Muradxanovun diqqət mərkəzində olmuş, təlimin tərbiyəedici xarakteri və xüsusiyyətləri haqqında maraqlı fikirlər söyləmişdir.

M.Muradxanov ayrı-ayrı ailələrdə müşahidə etdiyi nöqsanların uşaqların şüurlu intizam tərbiyəsinə zidd olan səhvlər kimi ailə tərbiyəsindən kənar edilməsini məqsədəuyğun sayırdı.

M.Muradxanovun tədqiqatlarında ümumtəhsil məktəblərində əmək tərbiyəsinin mahiyyəti, məzmunu, vəzifələri, sistemi, forma və metodları, təlim prosesində və sinifdənxaric işlərdə məktəblilərin əməyə mənəvi cəhətdən hazırlanması, əməyə şüurlu münasibət, əməyin təşkilinə verilən tələblər və s. məsələlər xüsusi yer tutur. O, problemi elmi-pedaqoji cəhətdən araşdırır və həmin sahədə qazanılmış təcrübəni ümumiləşdirirdi. Şagirdlərin əməyə yaradıcı münasibəti, onlarda fəallıq, təşəbbüskarlıq, məsuliyyət, əməksevərlik, əmək adamlarına qayğı və məhəbbət, ictimai mülkiyyətə qayğıkeşlik kimi yüksək əxlaqi keyfiyyətlərin formalaşmasının yol və vasitələri M. Muradxanovun tədqiqatlarında öz əksini tapırdı.

M.Muradxanov uşağın ailədəki vəzifələrini 4 qrupa ayırır: 1)uşağın ailədə zehni əməyi; 2) məişət işi; 3) təsərrüfat işi; 4) texniki əmək.

M. Muradxanov gənc nəslin tərbiyəsində müəllimin rolunu yüksək qiymətləndirmişdir. Müəllimin işinin özünəməxsus xüsusiyyətləri olduğunu şərh edən alim bu peşəni şərəfli və nəcib iş adlandırmışdır:

İkinci əsas xüsusiyyət kimi M.Muradxanov müəllimliyi çox məsuliyyətli iş hesab edir. Müəllim ən qiymətli kapital olan insan üzərində çalışır. Bu işdə səhvlər buraxmaq olmaz. Bu işdə buraxılmış hər hansı bir nöqsan və edilmiş səhlənkarlıq öz nəticəsini dərhal deyil, bir müddətdən sonra hökmən verir.

M.Muradxanov müəllimlik işinin sonuncu xüsusiyyəti kimi onun mürəkkəb iş olmasını bildirir. Görkəmli alimin məziyyətlərindən biri də onun əsl pedaqoq kimi müəllimlik sənətinin incəliklərinə sahib olmasındadır. Onun mühazirələrindəki dərin məna, məntiqi qüvvə, hisslərə güclü təsir edən ifadə tərzi adamı valeh edir. Öz sənətinin vurğunu olan bu görkəmli alim auditoriyada tələbələr qarşısında özünü gümrah və şən hiss etmişdir. Məhz buna görə də nəinki onun rəhbərlik etdiyi kafedra üzvləri,

eyni zamanda institutun və orta məktəblərin müəllimləri belə Mərdan Muradxanovun mühazirələrini dinləməkdən zövqalmışlar.

Beləliklə, tədqiqatdan belə nəticəyə gəlirik ki, M.Muradxanovun tərbiyə nəzəriyyəçisi kimi xidmətləri böyükdür. O, tərbiyənin cəmiyyətin inkişafında yerini qeyd etməklə bərabər, eyni zamanda tərbiyənin aparıcı rol oynadığını göstərmiş və bu işdə istər müəllimlər, istərsə də valideynlər tərəfindən yol verilən kiçik bir səhvin gələcəkdə ağır nəticələr verdiyini tövsiyə etmişdir.

Fəslin ikinci yarımfəsli «***M.Muradxanov təlim nəzəriyyəçisi kimi***» adlanır. Təlim nəzəriyyəsi şagirdlərin intellektual inkişafını, bilik, bacarıq və vərdişlərə yiyələnməsini, bir şəxsiyyət kimi formalaşmasını təmin etməyə xidmət göstərir. M.Muradxanov təlimin məzmunu ilə bağlı tədqiqatlarında əsaslandırırdı ki, 60-cı illərin ikinci yarısınadək təlimin məzmunu birtərəfli başa düşülmüş, proqramlarda şagirdlərə xarici aləmin yalnız dərk olunması üçün zəruri olan bilik və bacarıqlar sisteminin verilməsi nəzərdə tutulmuşdur. Təlimin mahiyyətindən bəhs edən pedaqoq təlimə müəllimin rəhbərliyi altında şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnməsi prosesi kimi tərif vermişdir. Bu tərifdən görünür ki, əvvələn, təlim zamanı şagirdlər bilik, bacarıq və vərdişlərə yiyələnirlər və ikincisi, bu proses ikitərəfli fəaliyyətdir: müəllim öyrədir, şagirdlər öyrənirlər.

M.Muradxanov təlim prosesinin 4 ünsürünü bir dərsdə təmin etmək tələb edilən zaman proqram mövzularının keçilməsində onların hamısı üzrə şagirdlərin fəaliyyətini təşkil etməyin vacib olması ideyasını irəli sürmüşdür. Azərbaycan pedaqoji elminin inkişafı təlimin prinsipləri anlayışının da dərin didaktik işlənməsində öz əksini tapmışdır. Prinsiplər tədqiqatın son mərhələsi yox, onun nəticəsidir – ideyasını əsas götürən M. Muradxanov tədris prosesinin bütövlükdə tənzimləyicisi kimi təlim prinsiplərinin onun konstruktiv roluna daha çox diqqət yetirmişdir.

Azərbaycan pedaqoji elmində təlimin 8 prinsipini verərək və bu bölgünü əsaslandıran M.Muradxanov başqa alimlərdən fərqli olaraq təlimdə nəzəriyyə ilə təcrübənin əlaqədə götürülməsini xüsusi prinsip kimi verməmiş, onun yerinə əməklə, həyatla əlaqəni daxil etmiş, elmilik prinsipini isə bölgüdən çıxarmışdır.

M.Muradxanov təlimin aşağıdakı prinsiplərini irəli sürür: 1) təlimin əməklə, kommunizm quruculuğu ilə əlaqələndirilməsi; 2) təlimin kommunistcəsinə tərbiyələndirilməsi; 3) əyanilik; 4) şüurluluq və fəallıq; 5) sistematiklik; 6) biliklərin möhkəmləndirilməsi; 7) müvafiqlik; 8) fərdi yanaşma.

M.Muradxanov hələ 60-cı illərin əvvəllərində təlimin prinsiplərindən danışarkən təlimin tərbiyəedicilik vəzifəsinə yüksək qiymət vermişdir. Müəllif bu prinsipi həyata keçirmək üçün lazım olan yolları da göstərir. O, müəllimlərə tövsiyə edir ki, onlar keçilən mövzu ilə əlaqədar olan və gündəlik həyatla səsləşən tərbiyəvi xarakterli materiallardan yeri gəldikcə məharətlə istifadə etsinlər.

M.Muradxanovun təlim metodlarından istifadə edilməsinə dair fikirləri onun didaktik baxışlarında dövrünə görə yenilikçi ruhu ilə seçilir. Alim qətiyyətlə bildirir ki, məktəblərimizdə uşaqların şüurunu inkişaf etdirən, şagirdlərə sistematik bilik verən, onların fəallığını, müstəqilliyini artıran təlim üsullarına geniş yer verilməlidir.

M.Muradxanov hələ 60-cı illərdə belə fikirdə idi ki, dərsin hər bir mərhələsində mövzuya, şagirdlərin fəallığına, məqsədə və s. görə metod seçmək effektli nəticə verir. Müəllif fikrini daha dərindən əsaslandıraraq məktəbdə istifadə edilən üsulların tətbiqi üçün aşağıdakı tələbləri irəli sürürdü:

1. Məktəbdə tətbiq edilən üsullar məktəbin əsas məqsədinə uyğun olaraq şagirdlərin elmlərin əsasına yiyələnməsini, hərtərəfli inkişafını, onlarda müstəqillik, təşəbbüskarlıq və fəallığın hər cəhətə artmasını təmin etməlidir.

2. Üsulların tətbiqi şagirdlərin yaş səviyyəsinə uyğun olmalıdır. Uşaqların şüurca nə dərəcədə yetişmiş olması, müstəqil işləmək bacarığına necə yiyələnməsi və s. təlim üsulunun tətbiq edilməsində mühüm rol oynayır.

3. Üsulların seçilməsinə tədris edilən fənnin də xüsusiyyəti təsir göstərir.

4. Üsulların seçilməsində bir saatlıq dərsin məqsədi və mövzusu da rol oynayır.

Müəllif fikrini yekunlaşdıraraq aşağıdakı təlim metodlarını tövsiyə edir: 1) müəllimin şərhi; 2) müsahibə; 3) illüstrasiya və demostrasiya; 4) laborator məşğələləri; 5) praktik məşğələlər; 6) çalışmalar; 7) kitab üzərində iş.

M.Muradxanov müəllimin şərhini izah edərək yazır: «Müəllimin şərhi müəyyən bir hadisəni, faktı, qanunauyğunluğu, qanun və qaydanı ardıcıl şəkildə şifahi söz vasitəsi ilə şagirdlərə çatdırması və mənimsətməsi deməkdir». Müəllif bu üsulun üstünlüyünü qısa vaxt ərzində geniş həcmdə məlumatın sistemlə şagirdlərə başa salınmasında görür. M. Muradxanov bu üsulun üstün cəhətləri olduğu kimi, zəif cəhətlərinin də mövcud olduğunu

bildirərək yazır ki, müəllim şərh edərkən uşaqların ancaq eşitmə duyğusu fəal olur, bu isə uşaqların fəallığını məhdudlaşdırır, diqqətini tez yorur. Bu cəhətlərini nəzərə alaraq, şifahi şərhi başqa üsullarla birlikdə tətbiq etmək lazımdır.

Alim pedaqoq şərhin əsasən 3 növdə tətbiq olunmasını tövsiyə edir:1) müəllimin nəqli; 2) müəllimin izahı; 3) məktəb mühazirəsi.

M.Muradxanov müəllimin izahı üsuluna tərif verərək yazır ki, müəllimin izahı müəyyən elmi qanun və qanunauyğunluğu, teorem və qaydanı, misal və məsələni, dəlil və sübutlarla şagirdlərə başa salması deməkdir. M.Muradxanovun belə bir fikri də maraqlıdır ki, müəllimin şərhini izah və nəql növlərinə bölməyimiz şərtidir və bunlar arasında qəti sərhəd yoxdur: təcrübədə çox vaxt bunlar vəhdətdə tətbiq olunurlar.

Müəllimin şərhinin üçüncü növü olan məktəb mühazirəsi şərhin nisbətən uzun müddətdə aparılan növüdür. M.Muradxanov bu növü izah edərək bildirir ki, məktəb mühazirəsində müəllim geniş bir mövzunu faktik materiallar və sübutlar əsasında şagirdlərə nəql və izah edir. Ali məktəb mühazirəsi ilə orta məktəbdə keçirilən mühazirənin fərqini izah edən müəllif orta məktəbdə mühazirə üsulunu başqa təlim üsulları ilə yanaşı tətbiq etmək və ondan sui-istifadə edilməsinə yol verməməyi tövsiyə edir.

M.Muradxanov təlimdə müsahibə üsulunu yüksək qiymətləndirmiş və məktəbdə ən çox tətbiq ediləni – yeni bilik vermək məqsədi ilə aparılan evristik müsahibə və bilikləri möhkəmləndirmək üçün aparılan təkrarlama müsahibəsinin şərhini elmi şəkildə vermişdir. Alim təlim prosesində şagirdləri fəallaşdırmağın ən səmərəli yolu kimi evristik müsahibəni izah etmişdir. M. Muradxanovun evristik müsahibəyə verdiyi tərifdə – evristik müsahibə şagirdlərə suallar verməklə onlara məlum fakt və hadisələr əsasında müstəqil nəticələr çıxarmağa, ayrı-ayrı qanunları, qanunauyğunları və qaydaları müstəqil surətdə «tapmağa» təhrik edən müsahibədir – bu üsulun mahiyyətini izah etmişdir.

M.Muradxanov bu üsuldan yalnız çıxarılacaq yeni nəticələri əsaslandırmaq üçün zəruri olan biliklər şagirdlərə ya köhnə dərslərdən məlum olduqda, ya da o barədə onların müəyyən həyati təcrübələri olduqda istifadə etməyi məsləhət görürdü.

Təlimin əyaniliyinə böyük qiymət verən M. Muradxanov təlim üsulları kimi illüstrasiya və demonstrasiyadan istifadə olunmasını məsləhət bilmişdir. İllüstrasiya və demonstrasiya, adətən, müəllimin izahı, nağılı və ya müsahibəsi ilə yanaşı tətbiq olunur.

M.Muradxanov dərsdə şagirdlərin fəallaşdırılmasını təmin etmək

üçün laborator məşğələlər, praktik işlər və çalışmalardan bacarıqla istifadə edilməsini məsləhət görürdü.

O, Məktəbdə çalışmalardan (1) şifahi çalışmalar;2) yazı işləri; 3) qrafik işlər; 4) bədən tərbiyəsi çalışmaları) istifadə olunmasının tətbiqinə hansı metodik göstərişlərin verilməsini şərh etmişdir.

Təlim metodlarının içərisində dərslik və kitab üzərində çalışmağın əhəmiyyətinə yüksək qiymət verən M. Muradxanov şagirdlərə kitabdan bacarıqla istifadə etməyi öyrətməyi müəllimlərə məsləhət bilir.

O, kitab üzərində şagirdlərin müstəqil işinin aparılması quruluşunu da konkret təqdim etmişdir:

1. Dərsi kitabdan öyrənərkən şagirdin ucadan yox, səssiz oxuması məsləhətdir.

2. Şagirdi alışdırmaq lazımdır ki, materialı öyürənməyə başlarkən əvvəlcə mətni tamam oxusun, sonra hissə-hissə daha diqqətlə, detallarına fikir verərək oxusun; hissə-hissə məna dərk edildikdən sonra kitabın tapşırıq hissəsində yazılan suallara cavab versin; bütün bunlardan sonra məzmunu öz-özünə nağıl etsin.

3. Kitab üzrə dərs hazırlarkən şagird dərsi kitab dili ilə yox, öz sözləri ilə danışmalı, kitabdakı misallara müvafiq özü fikirləşib misallar tapmalıdır.

4. Şagird mətn üzərində çalışarkən kitabdakı cədvəl, sxem, xəritədən istifadə etməlidir. Bu zaman öyrənmə daha fəal yolllarla gedir.

M. Muradxanov «Problemli təlim» anlayışına da öz münasibətini bildirmişdir.

Pedaqoji elmdə problemli təlim gah təlimin tipi, gah metodların məcmusu kimi nəzərdən keçirilmişdir. M. Muradxanov əsaslandırırdı ki, problemli təlim şagirdlərin yaralıcılıq imkalarının inkişafını təmin edir, onların intellektual potensialının formalaşmasında mühüm rol oynayır.

M.Muradxanovun tədqiqatlarında təlimin təşkili formaları da əsas tədqiqat istiqamətlərindən biri olmuşdur.O, təlimin təşkili formasının 4 (dərs, ekskursiya, əlavə məşğələ və məsləhət) növünü qeyd etmişdir.

Alimin elmi-pedaqoji irsinin, nəzəri baxışlarının təhlili göstərir ki, o, sonrakı dövrlərdə nəinki dərsi necə təşkil etmək haqqında, həm də dərsin təkmilləşdirilməsi ilə bağlı elmi-pedaqoji, didaktik fikirlər irəli sürərək dərsə verilən müasir tələblərdən bəhs edir.

M.Muradxanovun tədqiqatlarında dərsə verilən müasir tələblər, müasir dərsin əlamətləri, onları doğuran motivlər, dərsin səmərəliliyini yüksəltmək yolları, dərsdə fəallaşdırma vasitələri, kollektiv işlə fərdi işin

uzlaşdırılması, dərsin didaktik əsasları, təlim prosesinin mahiyyəti, funksiyaları (təhsil vermə, inkişafetdirici, tərbiyəedici), dərsdə şagirdin biliyini hesaba almaq və qiymətləndirmək kimi məsələlər öz elmi həllini tapmışdır.

M.Muradxanov qiymətləndirmədə biliyin həcmini, dərk edilmiş olduğunu, şagirdin onu həyata tətbiq edə bilməsini və öz biliyini ifadə etmək bacarığının nəzərə alınmasını əsas cəhət kimi göstərir.

M.Muradxanov şagirdlərə verilən gündəlik qiymətlər əsasında rüblük qiymətlər, rüblük qiymətlər əsasında isə illik qiymətlərin çıxarılması zamanı fənnin xüsusiyyətlərini nəzərə almağı tövsiyə edir. 60-cı illərdə ibtidai sinif müəllimləri üçün kifayət qədər elmi-metodik vəsaitin nəşr edilməməsi, bu mühüm məsələyə lazımınca fikir verilməməsi ibtidai siniflərdə işləyən müəllimlərin, xüsusilə gənc müəllimlərimizin təlimin keyfiyyətini günün tələbləri səviyyəsində qurmaqda, sinifdən və məktəbdənkənar tədbirlərin məzmunlu və səmərəli keçirilməsində bəzi çətinliklər qarşısında qalmalarına səbəb olur. Həmin dövrdə nəşr olunmuş «İbtidai sinif müəllimlərinə kömək» kitabı bu boşluğun aradan qaldırılmasına xidmət etmişdir.

İkinci fəslin üçüncü yarımfəsli «***M.Muradxanovun pedaqoji təcrübəni öyrənib ümumiləşdirilməsi sahəsində tədqiqləri***» adlanır.

Elmlərin, xüsusilə də pedaqogikanın nəzəri əsasları həyata, qabaqcıl təcrübə və müşahidəyə əsaslanmışdır. Başqa elmlər kimi, xüsusilə pedaqogika da elmi surətdə əsaslandırılmış, işlənilmiş müşahidə və təcrübəyə əsaslanmalı, pedaqogikanın mühüm müddəaları elmi surətdə müəyyənləşdirilmiş möhkəm bünövrə üzərində qurulmalıdır. Pedaqoji təcrübə pedaqoji elmin tələblərini müntəzəm öyrənərək təlim-tərbiyə işində yaradıcı şəkildə tətbiq etmək, qabaqcıl məktəblərin, yenilikçi pedaqoqların təcrübəsini öyrənmək və yaymaq işinin əsasını təşkil edir.

Qabaqcıl pedaqoji təcrübəni öyrənmək və yaymaq işinə başçılıq etmək, müəyyən məktəb və müəllimin işindən məhz nəyi götürməyi, bunu rayonun, məktəbin konkret şəraitinə uyğun olaraq necə tətbiq etmək üsullarını bilməyi tələb edir. Bu sahəyə müraciət edən pedaqoqlardan biri də Mərdan Muradxanov olmuşdur. Pedaqoji prosesin inkişafının daha düzgün yolla getməsinə qayğı göstərən, pedaqoji fakt və hadisələri təhlil etmək qabiliyyəti, pedaqoji təcrübənin nailiyyətlərini ümumiləşdirmək bacarığı zəngin olan M. Muradxanov həm təlim prosesində, həm də tərbiyədə bu üsuldan istifadə etməyi məsləhət bilmişdir.

Qabaqcıl məktəb təcrübəsini ümumiləşdirən pedaqoq dərsin quruluşunu yeniləşdirən müəllimlərin əməyini yüksək qiymətləndirir. M.

Muradxanov dərsdə yeni biliyi hazır şəkildə nəql etməyi məsləhət bilmir, əksinə, keçən dərsdə verilmiş tapşırıq əsasında yeni biliyi sual-cavabla şagirdlərin özlərinə tapdıran, təcrübələrin şagirdlərin özlərinə göstərməyə çalışan, sinifdə şagirdləri kitab üzərində çalışdırıb oxunan mətn əsasında müsahibə apararaq yeni biliyi bu yolla öyrədən, dərsdə müxtəlif müqayisələr, təhlillər əsasında cədvəllər, sxemlər tərtib etdirən müəllimlərin iş təcrübələrinin ümumiləşdirilib yayılmasını tövsiyə edir.

Qabaqcıl məktəb təcrübəsindən bəhs edən pedaqoq öz işinə məsuliyyətlə yanaşan müəllimlərin hər dərsə xüsusi hazırlaşdığını, keçən ilki dərs planlarında lazımi dəyişikliklər etdiyini, təcrübədə özünü doğrultmayan artıq şeyləri atdığını, müasir tələblərlə əlaqədar olan yeni məsələlər əlavə etdiyini, sinifdəki şagirdlərin konkret səviyyəsindən asılı olaraq ayrı-ayrı məsələlərin qoyuluşunu dəyişdiyini qeyd edir. Nəticədə bu müəllimlərin dərsləri yüksək keyfiyyəti ilə fərqlənir.

M.Muradxanov pedaqoji elmin mühüm tələblərini öyrənmək və tətbiq etmək, qabaqcıl təcrübəni yaymaq işinin faydalı və maraqlı formalarından hər vəchlə istifadə etməyin zəruri olduğunu bildirir.

Pedaqoq – alimin fikrincə qabaqcıl pedaqoji təcrübənin qüvvəsi onun kütləviliyindədir. Bu işi müntəzəm, planlı və düşünülmüş surətdə təşkil etmək, həm də yalnız tək-tək qabaqcıl məktəb və müəllimlərin mövcud olması ilə kifayətlənməmək lazımdır. Elə etmək lazımdır ki, təcrübə mübadiləsi kütləvi hal alsın, qabaqcıl pedaqoji təcrübəni öyrənmək və yaymaq işi bütün məktəb kollektivlərinin ritmik pedaqoji fəaliyyətinə, onların qabaqcıllar sırasına çıxmasına, təlim-tərbiyə keyfiyyətlərinin yüksəlməsinə kömək etsin.

Mərdan Muradxanovun qabaqcıl pedaqoji təcrübənin öyrənilməsində apardığı tədqiqatlar indi də öz aktuallığını saxlayır və istər müəllimlər, istərsə də pedaqoji universitet tələbələrinin bu tədqiqatlardan istifadə etməsi önəmlidir.

İkinci fəslin sonuncu yarımfəsli «***M.Muradxanovun Azərbaycanda pedaqoji fikrin inkişafında mövqeyi***» adlanır. M.Muradxanovun Azərbaycanda pedaqoji elmin, təhsil və mədəniyyətin inkişafına böyük təsiri olmuşdur. O, 45 kitab, kitabça, 150-dən artıq elmi və metodik məqalənin, terminoloji lüğətin tərtibçisi və redaktoru, Y.A.Komenskinin, K.D.Uşinskinin, N.K.Krupskayanın, A.S.Makarenkonun əsərlərinin Azərbaycan dilinə tərcüməçisi, «Pedaqogika» kitabının müəlliflərindən biri olmuşdur.

1940-cı illərdə aparılmasına baxmayaraq Nizami Gəncəvinin pedaqoji görüşləri ilə bağlı tədqiqat Azərbaycan pedaqoji fikrinin tədqiqi

sahəsində yaradılmış ən qiymətli əsərlərdən biridir. Tarixi pedaqoji fikrin tədqiqinə həsr edilmiş bu əsərdə Nizaminin dövrü, həyatı, yaradıcılığı, siyasi görüşləri səciyyələndirilmiş, şairin əqli təhsil, biliyin əhəmiyyəti, əxlaq tərbiyəsi, əməksevərlik, qadın təhsili, təlimin məzmunu, tərbiyəedici xarakteri ilə bağlı baxışları ilk dəfə olaraq təhlil edilmişdir. «Bu əsərin böyük elmi məziyyəti ondan ibarətdir ki, burada Nizaminin pedaqoji ideyaları, onun fəlsəfi və etik konsepsiyası orta əsr Şərq pedaqoji fikrinin inkişafı ilə əlaqədar olaraq işıqlandırılmışdır».

«A.S.Makarenkonun pedaqoji irsi və ondan Azərbaycanda istifadə edilməsi təcrübələri» əsərində «sabahın pedaqogikasını» yaratmaq ideyası ilə yaşamış və öz pedaqoji müddəalarını dialektik əsaslarla işləmiş, Makarenkonun irəli sürdüyü əsas müddəalar – tərbiyənin mahiyyəti və uşağa kollektivdə, hərtərəfli təsir göstərmək haqqındakı fikirləri, tərbiyədə optimizm, müsbət cəhətlərə istinad edərək mənfi əlamətləri ləğv etmək, uşağa mümkün qədər hörmət etmək və ondan mümkün qədər çox tələb etmək, uşağı əmək əsasında tərbiyə etmək, kollektivdə perspektiv vəzifələr irəli sürmək, tərbiyəvi ənənələr yaratmaq, tərbiyə işində maraqlı zahiri formalardan və oyunlardan istifadə etmək və s. haqqındakı müddəaları öz aktuallığını indi də itirməmiş və gələcəkdə də itirməyəcəkdir.

M.Muradxanov gənc qüvvələri ətrafına toplayaraq «Pedaqogika» dərs vəsaitini nəşr etdirmişdir. Bu dərs vəsaitində hər şeydən əvvəl, pedaqogikanın mövzusu, vəzifələri, əsas anlayışları (təlim, tərbiyə, təhsil), pedaqoji elmlər sistemi, pedaqogikanın mənbələri, tədqiqat üsulları, ictimai elmlər sistemində pedaqogikanın tutduğu mövqe və s. problemlər dövrun tələbləri səviyyəsində işlənildi. Bu, bir sıra az işlənmiş nəzəri problemlərin, məsələn, pedaqogika və psixologiyanın qarşılıqlı əlaqəsinin, tərbiyə və təhsilin vəhdəti kimi məsələlərin dövrün tələbləri səviyyəsində işlənməsinə imkan verdi.

M.Muradxanovun ən böyük xidmətlərindən biri yüksək ixtisaslı elmi kadrların yetişdirilməsinə qayğısıdır. O, iyirmidən çox elmlər namizədi hazırlamış, onlarla tədqiqatçının rəsmi opponenti olmuşdur.

M.Muradxanovun epistolyar yaradıcılığı da çox maraqlıdır. O, gənclərlə məktublaşmaya, kitablarını avtoqrafla bağışlamağa xüsusi əhəmiyyət vermiş, gənclərdə nikbin əhval-ruhiyyə yaratmağa çalışmışdır.

M.Muradxanovun tədqiqatları pedaqogikanın müddəalarını, metodoloji məsələlərini araşdırmaq, didaktikanın və tərbiyəşünaslığın xüsusiyyətlərini izah etmək baxımından mühüm əhəmiyyət kəsb edirdi.

Həmin dövrdə pedaqoji biliklərin empirik və nəzəri materialları toplandı. Onların sintez edilməsi, ümumiləşdirilməsi, habelə, tərbiyə, təhsil və təlim prosesinin yeni qanunauyğunluqlar səviyyəsinin müəyyənləşdirilməsinə zəmin yarandı. Bütün bunlar əslində pedaqogika elminin inkişafına güclü təsir göstərdi.

Mərdan Muradxanovun elmi irsi təkcə onun yaşadığı dövrdə deyil, ondan sonrakı dövrdə də həmişə dəyərli mənbə hesab edilmişdir. Məhz onun irsini öyrənən, ondan bəhrələnən bir çox gənc tədqiqatçılar sonrakı illərdə pedaqogika elmini daha da inkişaf etdirdilər. Bu barədə Əliheydər Həşimov, Yusif Talıbov, Əjdər Ağayev və digər görkəmli pedaqoqlar öz məqalələrində qeyd etmiş, onun elmi irsini yüksək qiymətləndirmişlər.

Mərdan Muradxanov pedaqoji yaradıcılıq prosesində ilk növbədə elmi yanaşmaya, elmi prinsipi rəhbər tutmağa daim üstünlük vermişdir. Bu baxımdan onun ideyaları həmişə aktual olmuş və müasir dövrdə də elmi dəyərini, nəzəri və praktik əhəmiyyətini saxlamaqdadır. Nəzəri tədqiqatlarda Mərdan Muradxanov irsinə müraciət olunur, elmi pedaqoji ideyalarından istifadə edilir. Təhsil müəssisələrində müəllimlər praktik fəaliyyətlərində Mərdan Muradxanov irsindən bəhrələnir, xüsusilə nəzəriyyə və praktikanın vəhdəti ideyasının tətbiqinə daha çox çalışırlar.

Araşdırmalardan gəldiyimiz qənaət budur ki, Mərdan Muradxanovun elmi-pedaqoji irsi pedaqogika elminin inkişafına daim təkanverici rol oynayacaqdır.

Apardığımız tədqiqat aşağıdakı **nəticələri** gəlməyə əsas verdi:

1. Mərdan Muradxanovun elmi-pedaqoji fəaliyyətilə irsi Azərbaycanda təhsil və pedaqoji elmin inkişafı tarixində xüsusi mərhələ təşkil edir. O, fəaliyyəti prosesində pedaqogika nəzəriyyəsi və pedaqogika tarixinin tədrisi, tədqiqi və təbliği ilə daim məşğul olmuş və onun zənginləşməsində müstəsna rol oynamışdır.

2. M.Muradxanov Azərbaycan və dünya pedaqoji fikir tarixinin tədqiqi ilə daim məşğul olmuş, Nizami irsindəki təlim-tərbiyə məsələlərini, K.D. Uşinski, Y.A. Komenski kimi pedaqogika klassiklərinin irsini dərindən öyrənmiş, A.S. Makarenko irsinin tədqiqi və onun Azərbaycanda təbliği sahəsində tədqiqatlar aparmışdır.

3. M.Muradxanovun elmi-pedaqoji irsi pedaqogika tarixi və nəzəriyyəsinin ən aktual sahələrini, o cümlədən təlim nəzəriyyəsi, tərbiyə,

qabaqcıl pedaqoji təcrübənin ümumiləşdirilməsi, ailə tərbiyəsi və s. problemləri əhatə edir.

4. M.Muradxanov didaktikanın aktual problemləri sahəsində ardıcıl tədqiqat işi aparmış, pedaqogikadan dərslik və dərs vəsaitlərinin hazırlanmasında əvəzolunmaz fəaliyyət göstərmişdir.

5. M.Muradxanov didaktikanın ən zəruri məsələlərini-təlim prosesinin mahiyyəti, məzmunu, prinsipləri, metodları, təşkili formaları, şagirdlərin təlim müvəffəqiyyətinin qiymətləndirilməsi məsələlərini geniş tədqiq edərək bu barədə maraqlı fikirlər irəli sürmüşdür.

6. M.Muradxanov tərbiyənin geniş pedaqoji proses olduğunu göstərmiş, tərbiyənin məzmunu, mahiyyəti, prinsipləri və metodlarını, şagirdlərin «ədəb qaydaları»nı müəyyən etmiş, uşaqların ailədə əmək, şüurlu intizam tərbiyəsi problemlərini tədqiq etmişdir.

7. M.Muradxanov elmi- pedaqoji kadrların, yaradıcı təşəbbüskar müəllimlər nəslinin yetişməsində, qabaqcıl pedaqoji təcrübənin öyrənilib ümumiləşdirilməsində zəngin təcrübə məktəbi yaratmışdır.

8. Ailə tərbiyəsində valideynin şəxsi nümunəsinə yer verən M. Muradxanov bu işdə məktəbin və ictimaiyyətin əlbir işini yüksək qiymətləndirmişdir.

9. Respublikamızın geniş pedaqoji ictimaiyyəti arasında böyük nüfuz qazanmış professor Mərdan Muradxanovun həyatı və pedaqoji fəaliyyəti nümunə məktəbi olmaqla indi də pedaqogika tarixində ən layiqli yerlərdən birini tutur.

Tədqiqat işində aşağıdakı **təkliflər** irəli sürülür:

1. Mərdan Muradxanovun elmi-pedaqoji irsinin ali pedaqoji məktəblərdə xüsusi kurs kimi tələbələrə öyrədilməsi onların pedaqoji işə hazırlanmasına olduqca səmərəli təsir göstərə bilər.

2. M.Muradxanovun əsərlərinin problemlər üzrə ayrı-ayrı cildlərdə toplanaraq nəşr edilməsi ali pedaqoji məktəb tələbələrinin, müəllimlərin və tədqiqatçıların onlardan istifadəsini asanlaşdırar və bu əsərlərin təbliğinə və tədqiqinə şərait yaradar.

3. Mərdan Muradxanovun şəxsiyyəti, mənəvi keyfiyyətləri və iş üslubu haqqında pedaqoji kollektivlərdə, tələbələr arasında söhbətlərin, müzakirələrin, seminar və konfransların keçirilməsi onun haqqında müasir nəsildə tam təsəvvür yaradar.

Tədqiqatın nəticələri aşağıdakı **əsərlərdə** öz əksini tapmışdır:

1. Bu gün də gərəkli olan dərsliklər // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, 2001, №5, s.183-188

2. Qori seminariyasının daha bir məzunu // Pedaqoji tədqiqatlar, ADPU-nun elmi məqalələr məcmuəsi , 2001, №3, s. 99-103

3. M.Muradxanovun pedaqoji irsində ailə tərbiyəsi məsələləri // Dil və ədəbiyyat, 2008, №5, s.181-182

4. Mərdan Muradxanov təlim nəzəriyyəçisi kimi // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Elmi Əsərlər, 2008, №4, s. 240-242

5. Научно-педагогическое наследие М.Мурадханова в Азербайджанской педагогике // Перспективы развития современной школы, Воронеж, 2009, №6, с.43-45

6. M.Muradxanovun Azərbaycanda pedaqoji fikrin inkişafında mövqeyi // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. Elmi Əsərlər, 2011, №1, s. 216-219

7. M.Muradxanov təlim nəzəriyyəçisi kimi / «Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri» mövzusunda beynəlxalq konfransın materialları, Naxçıvan, 2011, s. 224-226

8. М.Мурадханов о воспитании дисциплинированности в семье // Казахский национальный университет имени Ал-Фараби. Вестник (сериа педагогический наук). 2012, №1, с.105-10

**А.Т. Шарифова**

**Педагогическое наследие М.Мурадханова и ее воздействие на развитие педагогической науки в Азербайджане**

## Резюме

Диссертационная работа посвящена педагогическому наследию видного педагога М.Мурадханова. Исследование состоит из введения, двух глав, заключения, списка использованной литературы и приложений.

Во введении обоснована актуальность темы, определяются объект, предмет, целы и задачи, методологическая основа и методы исследования, излагается основная научная гипотеза исследования. Отмечается научная новизна исследуемой темы, ее теоретическое и практическое значение, а также выдвигаемые на защиту положения.

Первая глава диссертации называется «Жизнь, научная и педагогическая деятельность М.Мурадханова». Глава состоит из трех параграфов. В глава характеризуется общественно – экономическая, научно – культурная деятельность М.Мурадханова, его жизнь и педагогическая деятельность, научно – педагогическое наследия.

Вторая глава диссертации называется «Вопросы теории и практики в педагогическом наследии М.Мурадханова». Глава состоит из четырех параграфов. В данных параграфах рассматриваются такие вопросы, как теоретик воспитания, теоретик обучения, его исследования в сфере изучения и обобщения педагогической практики, позиция его в развитии педагогической мысли в Азербайджане.

В конце диссертации дан список использованной литературы, даны предложения в связи с разработкой данной проблемы.

**A.T.Sharifova**

## M.Muradkhanov's pedagogical heritage and its impact on the development of pedagogical science in Azerbaican

## SUMMARY

The thesis is devoted to the pedagogical heritage of a prominent educator M.Muradkhanov. The study consists of an introduction, two chapters, conclusion, bibliography and appendices.

In the introduction the urgency of a theme determined by the obcect, an obcect intact and obcectives, the methodological framework and research methods, presents the main scientific hypothesis of the study. There is scientific novelty of the topic, its theoretical and practical significance, as well as put forward in the protection position.

The first chapter of the thesis is called "Life, scientific and educational activities M.Muradkhanova." The chapter consists of three sections. At the chapter is characterized by socio - economic, scientific - cultural activities M.Muradkhanova, his life and teaching activities, scientific - pedagogical heritage.

The second chapter is called "Theory and practice in teacher M.Muradkhanova heritage." The chapter consists of four sections. These sections deal with such issues as the theorist of education, learning theorist, his research in the field of learning and generalization of teaching practice, his position in the development of educational thought in Azerbaican.

At the end of the dissertation a list of references, is given.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**ШАРИФОВА АСМАД ТАЙЯР ГЫЗЫ**

# ПЕДАГОГИЧЕСКОЕ НАСЛЕДИЕ М.МУРАДХАНОВА И ЕЕ ВОЗДЕЙСТВИЕ НА РАЗВИТИЕ ПЕДАГОГИЧЕСКОЙ НАУКИ В АЗЕРБАЙДЖАНЕ

**5804.01** – общая педагогика, история педагогики и образования

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание научной степени доктора философии по педагогике**

**Б А К У - 2014**